# Yaxın gələcəkdə Xocavənd də, Hadrut da əsil cənnətə çevriləcək



***Son vaxtlar Azərbaycan Prezidenti İlham Əliyev rayonlarımızın işğaldan azad olunduğu günləri həmin ərazilərə səfəri və ictimaiyyətlə görüşlər keçirməsi ilə qeyd edir. Bir qədər əvvəl Cəbrayılın azad olunması günü qeyd edilib. Oktyabrın 9-da isə dövlət başçısı Xocavəndə səfər edərək rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb. Rayonun inzibati ərazisinə daxil olan Hadrut qəsəbəsinin azad olunması uğrunda əməliyyatı Prezident İkinci Qarabağ müharibəsində xüsusi əhəmiyyətli əməliyyat adlandırıb.***

Cənab Ali Baş Komandan bildirib ki, Hadrut əməliyyatı həm hərbi, həm strateji nöqteyi-nəzərdən çox böyük əhəmiyyətə malik olub. Bu əməliyyatın uğurla başa çatması imkan verib ki, bütün Qarabağın azad edilməsinə nail olaq. Hadrut dağlıq ərazi olduğundan qəsəbənin ətrafında yerləşən təpələr böyük əraziyə nəzarət etməyə imkan verib. Eyni zamanda, Ermənistan ordusu burada direniş göstərib, şiddətli döyüşlər bir neçə gün davam edib.

Prezident deyib ki, Ermənistan ordumuzun Cəbrayıldan sonra Hadrut istiqamətinə gələcəyini gözləməyib. Onlar hesab ediblər ki, biz Füzuli istiqamətinə gedəcəyik. Amma Azərbaycan Ordusu manevr edərək Hadruta istiqamət götürüb və ermənilərin buradakı çoxlu canlı qüvvəsini məhv edərək, böyük fədakarlıq və peşəkarlıq göstərib: "Biz bu əməliyyatı keçirməklə öz gücümüzü bir daha Ermənistana və bütün dünyaya göstərdik. Göstərdik ki, heç kim və heç nə bizim qabağımızda dura bilməz, nəyin bahasına olursa-olsun, biz bütün torpaqlarımızı azad edəcəyik".

Müharibə başa çatandan sonra Ermənistan Şirak vilayətindən Hadrutun bəzi kəndlərinə xüsusi diversiya qrupu göndərib. Onlar noyabrın sonlarında Laçın dəhlizindən keçərək bu bölgələrə daxil olublar. Lakin ayıq-sayıq qüvvələrimiz tərəfindən tərksilah edilib, həbs olunublar. Bu isə onu göstərir ki, ermənilər Hadrutdan əl çəkmək istəmirmiş.

Bundan sonra Azərbaycanın müzəffər ordusu müxtəlif istiqamətlər üzrə zəfər yürüşümüzü davam etdirib. Hadrut azad olunandan heç 10 gün keçməmiş Füzuli azad edilib. Sonrakı istiqamət Şuşa olub. Bununla bağlı dövlət başçısı deyib: "Bax, o Zəfər yolu dediyimiz tarixi yol, o cümlədən Hadrut meşələrindən keçirdi. Beləliklə, Füzuli oktyabrın 17-də götürüləndən sonra Ermənistana daha çox zərbə oldu. Çünki artıq Cəbrayıl, Hadrut, Füzuli, yeni böyük yaşayış məntəqələri işğaldan azad edildi".

İndi isə söhbət digər ərazilərimiz kimi, Xocavəndin və Hadrutun da bərpasından gedir. Prezident İlham Əliyev qeyd edib ki, biz Hadrutu bərpa edəcəyik: "Hadrutun baş planı, onun ilkin versiyası mənə təqdim edildi. Mənim bir çox iradlarım olub, ona görə mən bu gün o planı gətirmədim. Çünki hələ onun üzərində işləmək lazımdır. Ancaq hesab edirəm ki, yaxın 1 ay ərzində bizim memarlar, inşaatçılar yeni plan üzərində işləyəcəklər, təqdim olunacaq və biz onu təsdiq edəcəyik".

Buna baxmayaraq, Prezidentin səfəri çərçivəsində Hadrutun bərpası işlərinə start verilib. Avtomobil yolunun təməli qoyulub. Bəyan edilib ki, dördzolaqlı Hadrut-Cəbrayıl, Hadrut-Füzuli avtomobil yolları çəkiləcək. "Hadrut" yarımstansiyasının təməli qoyulub. Yeni məscidin tikintisinə başlanılıb. Dövlət başçısı deyib ki, Hadrutun tarixi hissəsi yenidən qurulacaq, qəsəbə beynəlxalq mədəniyyət və turizm mərkəzinə çevriləcək. Ümumiyyətlə, Xocavənddə bitkiçilik, heyvandarlıq, üzümçülük inkişaf etdiriləcək. Xocavənd rayonunun turizm potensialı çox genişdir. Bura təbiətcə zəngin məkandır, hər tərəf dağlar, meşələr, çaylar, cənnətməkandır. Tarixi abidələr, körpülər, eyni zamanda, məşhur Azıx mağarası, Tağlar mağarası burada yerləşir. Tarixi abidələrlə zəngin olan bu yerlərdə turizm mərkəzləri, otellər tikmək üçün azərbaycanlı və xarici investorlar dəvət ediləcək.

Beləliklə, dövlətimizin Xocavənd rayonunun, Hadrut qəsəbəsinin gələcək inkişafı ilə bağlı çox böyük planları var və artıq bu planların icrasına start verilib. İnanırıq ki, yaxın gələcəkdə bu ərazilər də əsil cənnətə çevriləcək.

***Arzuman MURADLI,***
***YAP Səbail rayon təşkilatının sədr müavini, iqtisadiyyat üzrə fəlsəfə doktoru***

Xalq qəzeti .- 2021.- 12 oktyabr.- S.11.